# Prezidentin ən yaxın silahdaşı

## Birinci vitse-prezident Mehriban Əliyevanın çoxcəhətli və davamlı fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da geniş ictimai əks-səda doğurur





**Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Müasir dövrdə də adı Vətənlə qoşa səsləşən qadınlarımız - analarımız ölkənin ictimai-siyasi, mədəni, humanitar sahələrində, icra, qanunverici və məhkəmə hakimiyyətlərində, yerli özünüidarəetmə orqanlarında fəaliyyət göstərir, Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi üçün böyük əmək sərf edirlər.**

### GENİŞ İCTİMAİ ƏKS-SƏDA DOĞURAN FƏALİYYƏT

Azərbaycanda qadın hərəkatının formalaşmasında, onların hüquqlarının qorunmasında Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkənin Birinci-vitse-prezidenti Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Mehriban xanımın bu sahədə çoxcəhətli və davamlı fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da geniş ictimai əks-səda doğurur.

### XEYRİYYƏÇİLİK ƏNƏNƏLƏRİNİ DİRÇƏLTMƏK

Mehriban Əliyeva 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. Onun yüksək təşkilatçılıq qabiliyyəti və beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kuboklarının, həmçinin dünya və Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarların qəbul olunmasında həlledici rol oynayıb. Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, onun milli dövlətçilik ideyalarının yeni nəsillərə aşılanması məqsədi ilə yaradılmış Heydər Əliyev Fondunun prezidentidir. 2004-cü il mayın 10-da Heydər Əliyev Fondunun rəsmi açılışı olub. Xalqımızın xeyriyyəçilik ənənələrinin dirçəldilərək daha geniş miqyas alması bilavasitə Heydər Əliyev Fondunun prezidentinin göstərdiyi şəxsi nümunə nəticəsində mümkün olub. O bütün qərarları ilə milliliyini nümayiş etdirib. Daim Vətəninin tərəqqisinə xidmət edib, ölkəmizin mədəniyyətinin, təhsilinin, səhiyyəsinin, idmanının inkişafı üçün yorulmadan çalışıb. Heydər Əliyev Fondunun müxtəlif sahələri əhatə edən layihələri yalnız Azərbaycanın hüdudları ilə məhdudlaşmayıb. Mehriban Əliyevanın təşəbbüsü ilə Fond Vatikanda, Fransada, Pakistanda, Cibutidə, Bosniya və Herseqovinada, Misirdə, Hindistanda və digər ölkələrdə önəmli layihələr icra edib. Bütün bunlara görə, Heydər Əliyev Fondunun fəaliyyəti, ölkənin müxtəlif inkişaf sahələrində gördüyü işlər 2015-ci il iyunun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib, Fondun prezidenti Mehriban Əliyeva "Heydər Əliyev" Ordeni ilə təltif edilib.

### VƏTƏN VƏ MİLLƏT MARAQLARININ QORUYUCUSU

Mehriban Əliyeva 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi (YAP) Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavini, 2021-ci il martından sədrin birinci müavinidir. 2005, 2010, 2015-ci illərdə Milli Məclisə keçirilən seçkilərdə onun namizədliyi YAP tərəfindən 14 saylı Xəzər ikinci seçki dairəsindən irəli sürülüb və deputat seçilib. Mehriban Əliyeva Milli Məclisin deputatı kimi uğurlu millət vəkilliyi fəaliyyəti ortaya qoyub. Seçicilərinin etimadını qazanaraq qadınların, gənclərin dövlət idarəçiliyində və xalqın təmsilçilik orqanlarında fəal iştirakının əsas təşəbbüskarı olub. Mehriban Əliyeva nümayiş etdirdiyi yüksək siyasi əxlaqla, Vətən və millət maraqlarına daim önəm vermə məramı ilə mükəmməl örnəyə çevrilib.

### SÜRƏTLİ İNKİŞAFIN ŞAHİDİNƏ ÇEVRİLMƏK

2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. 2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edib. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradılıb və onun sədri Mehriban Əliyeva təyin olunub. Mehriban xanımın fəaliyyəti nəticəsində 2015-ci ildə Azərbaycan belə bir mötəbər tədbirə yüksək səviyyədə ev sahibliyi edib. Birinci Avropa Oyunları Mehriban xanımın uğurla təşkil etdiyi yeganə irimiqyaslı tədbir deyil. O, 2017-ci il mayın 12-dən 22-dək Azərbaycanın ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin də sədri olub, bu tədbirin uğurla keçirilməsində mühüm xidmətlər göstərib. Bundan başqa, "Eurovision 2012" mahnı müsabiqəsinin Bakıda yüksək səviyyədə keçirilməsində də birinci xanımın səylərini qeyd etmək lazımdır. Bu yarışma dünyada ən uzun televiziya şousu, Avropa qitəsində isə ən mühüm musiqi tədbiri hesab olunur. Bütün bu yarışmaları izləmək üçün dünyanın müxtəlif ölkələrindən Azərbaycana üz tutmuş çoxsaylı qonaqlar gördükləri qonaqpərvərlikdən razılıqlarını ifadə edib və Azərbaycanın müxtəlif sahələrdə nail olduğu sürətli inkişafın şahidi olublar.

2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun zəngin fəaliyyətinin və təşkilatçılıq bacarığının məntiqi nəticəsi kimi dəyərləndirilir. "Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam" - söyləyən Mehriban Əliyeva Birinci vitse-prezident kimi Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə necib missiya və yeni öhdəliklər götürüb. Birinci vitse-prezident Mehriban Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlətimizin başçısının və xalqımızın etimadını layiqincə doğruldub. Mehriban Əliyeva millət vəkili, Fond rəhbəri, Birinci vitse-prezident kimi indiyə qədər ölkə həyatının bütün sahələrində irəli sürdüyü uğurlu təşəbbüslərlə, gördüyü işlərlə cəmiyyətdə özünə müsbət imic formalaşdırıb. Nəticə etibarilə o, Prezident İlham Əliyevin ən yaxın silahdaşına çevrilib, ölkə rəhbərinin siyasi nüfuzunun daha da yüksəlməsinə əməli töhfələr verib. Xalqın hakimiyyətə inamının möhkəmlənməsinə Prezidentdən sonra ən böyük xidməti də məhz Birinci vitse-prezident Mehriban xanım Əliyeva göstərib.

**Rufik İSMAYILOV**